

# Qalib ölkə, müstəqil siyasət, firavan həyat

*Prezident İlham Əliyevin ötən il Xankəndi şəhərində alovlandırdığı Novruz tonqalı bir daha bütün dünyaya bəyan etdi ki, Qarabağ Azərbaycandır! Otuz ildən sonra Xankəndidə alovlanan bu tonqal dünya azərbaycanlılarının qəlbini isindirdi. Hər birimiz bu xoş mənzərəni artıq dördüncü dəfədir ki, qürurla, fəxrlə, qalib ölkənin vətəndaşı olaraq seyr etdik. Vətən müharibəsindən sonra bütün bayramları qürur və fəxarət hissi ilə keçiririk.*

Novruz, həm də dostluq, həmrəylik, yüksək mənəviyyat bayramıdır. Ona görə də Novruzu hər il böyük el bayramı kimi qeyd edirik. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Ümummilli Liderin vəsiyyətini və Azərbaycan xalqının arzularını reallaşdırdı. Ali Baş Komandanın rəhbərliyi ilə yenilməz ordumuz doğma torpaqlarımızı işğaldan azad etdi və biz artıq həmin ərazilərdə Novruz bayramını böyük təntənə ilə qeyd edirik. Prezident İlham Əliyev xalqımızı Novruz bayramı münasibətilə təbrik edərkən bir daha vurğuladı ki, Novruz bayramı ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpası şəraitində həyatımızın yeni mərhələsinin başlanğıcına təsadüf etməsi ilə əlamətdardır: *"Yaz fəslinin yeniləşdirici ab-havası daha güclü Azərbaycan naminə hər birimizin qurub-yaratmaq əzmini artırır. Əminəm ki, azadlığına qovuşmuş əzəli torpaqlarımıza əbədi qayıdışımızı qalibiyyət duyğusundan aldığımız böyük ruh yüksəkliyi ilə ən qısa zamanda uğurla gerçəkləşdirəcəyik".*

Müzəffər Ali Baş Komandan İlham Əliyev adını qalib Prezident kimi dünya hərb tarixinə qızıl hərflərlə yazdırdı. Bu, tarixi Zəfərimizdən sonra torpaqlarımıza davamlı səfərlərində, işğaldan azad edilmiş ərazilərimizin müsir tələblər səviyyəsində qurulması ilə bağlı tapşırıqlarında, bu məkanlardan ünvanladığı çağırışlarda özünün aydın ifadəsini tapır. Qarabağ, Şərqi Zəngəzur dirçəlir, cənnətməkana çevrilir. Müstəqil dövlətçilik tariximizdə ən qürurlu günləri yaşayırıq. Bu, mübaliğəsiz belədir. 30 ilə yaxın müddətdə hər bir azərbaycanlı, hər bir Azərbaycan vətəndaşı, hər birimiz öz içimizdə, qəlbimizdə natamamlıq hissini yaşayırdıq. Torpaqlarımızı işğaldan azad edəcəyimizə inamın sönməsinə imkan verməsək də, Qarabağsız yaşadığımız hər ötən gün, hər ötən il, hər ötən onillik ümidlərimizi xəyala çevirirdi. Özümüzü onunla sakitləşdirirdik ki, işğalçı Ermənistan birinci savaşda tək olmayıb, havadarı, yaxud havadarları olub. Amma düşmən indi də tək deyildi. 30 il əvvəlkindən daha güclü idi. Havadarları da qat-qat çox idi. 44 günlük Vətən müharibəsi dediklərimizin sübutudur. Vətən müharibəsinin nəticəsi olaraq qalib ölkənin vətəndaşı hissini yaşamaq əvəzolunmaz duyğudur. Azərbaycan xalqı qalibdir. Prezident, Ali Baş Komandan cənab İlham Əliyev xalqımıza verdiyi sözə böyük rəhbər və müzəffər sərkərdə kimi əməl etdi. Bu gün Azərbaycan Prezidenti bütün dünyada öz vədlərinə sadiq qalan, qarşısına qoyduğu hədəflərə çatmağı bacaran bir lider kimi tanınır. Qarabağın Ermənistanın işğalından və erməni separatçılarından azad edilməsi, Azərbaycan Bayrağının Xankəndidə ucaldılması da vəzifəyə gəldiyi gündən onun bir nömrəli hədəfi olub. Azərbaycan xalqının onilliklər ərzində olan arzusu, nəhayət ki, çin oldu. Dövlətimizin başçısının bəyan etdiyi kimi, biz bu gün buradayıq, Ali Baş Komandanımız İlham Əliyevin Xankəndi şəhərinin mərkəzi meydanında ucaltdığı üçrəngli Azərbaycan bayrağının bir daha heç vaxt enməyəcəyinə bütün varlığımızla əminik.

**(davamı 3-cü səhifədə)**

# Qalib ölkə, müstəqil siyasət, firavan həyat




(əvvəli 1-ci səhifədə)

Böyük fəxrlə qeyd edirik ki, müasir müstəqil Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf edir, möhtəşəm uğurlara imza atır. Təbii ki, bu, böyük səylərin, ən əsası dövlətinə, xalqına sevgini özündə ehtiva edən siyasətin nəticəsidir. Dövlət başçımız bildirib ki, bu gün hər yerdə və hər sahədə gedən inkişafın təməlində məhz xoş əhvali-ruhiyyə, xoş ovqat, cəmiyyətimizin rahat yaşaması, özünə əminlik hissləri dayanır. Mən də bilirəm ki, arxamda Azərbaycan xalqı dayanır. Azərbaycan xalqı da bilir ki, mən onun arxasında dayanıram, yəni bu, xüsusi bir hissdir. Bunu yəqin ki, bir çoxları yaşamayıb. Xüsusilə hər iki dövrdə ölkəyə rəhbərlik edən şəxs kimi bəlkə də bu, unikal təcrübədir. Dörd il keçməsinə baxmayaraq, hələ ki, bunu tam anlamaq çətindir. Mən azad edilmiş torpaqlarda bəlkə də 100 dəfədən çox olmuşam və hər dəfə gedəndə özümə eyni sözləri deyirəm, eyni sevinci bölüşürəm. Sanki birinci dəfə gəlmişəm oraya. Yəni siz necə, mən də elə. Əlbəttə ki, məsuliyyət və qürur hissi. Biz elə ölkədə yaşayırıq ki, ilk növbədə ölkəmizlə, xalqımızla fəxr edə bilərik.

Prezident İlham Əliyev bütün sahələrdə ölkəmizin dinamik inkişafına imza atıb. Onun gərgin zəhmətinin, əzmkar fəaliyyətinin bilavasitə nəticəsidir ki, xalqımızın rifahı durmadan artır, ölkəmizdə əmin-amanlıq, sabitlik tam bərqərar olub, vətəndaşlarımızın xoşbəxt və firavan həyatı təmin edilib. Əminliklə deyə bilərik ki, xalqımız qüdrətli Azərbaycanla fəxr edir və qürur duyur. Belə ki, bu gün Azərbaycan cənab İlham Əliyevin liderlik keyfiyyətləri, peşəkarlığı, dərin siyasi təcrübəsi sayəsində regionun ən güclü dövləti hesab olunur. Bu coğrafiyada Azərbaycanın iştirakı olmadan heç bir layihə reallaşa bilməz, istənilən məsələdə mütləq ölkəmizin rəyi nəzərə alınır. "Qalib ölkənin nümayəndəsi kimi, xüsusilə rəhbəri kimi yaşamaq, işləmək, beynəlxalq təmaslarda olmaq tamamilə fərqli hissdir. Xüsusilə nəzərə alsaq ki, 17 il ərzində biz tam fərqli bir vəziyyətdə idik, haqlı olduğumuza baxmayaraq, bizi haqsız hesab edirdilər. Bütün bu 17 il ərzində ictimaiyyətin diqqətindən kənar bir çox məqamlar olub ki, insanı dərindən həm hiddətləndirirdi, həm üzürdü, həm də incidirdi. Ədalətsizlik - çünki necə deyim, ən böyük ədalətsizlik elə ədalətsizlikdir". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində söyləyib. Bu reallıqlar Azərbaycanın dünəninin, bugününün və onların əsasında qarşıdakı dövrün hədəflərinin təqdimatıdır. Yerli televiziya kanallarına müsahibəsində cənab İlham Əliyev Azərbaycanın addım-addım nail olduğu hədəflərdən, müstəqil siyasətimizin uğurlarından, ədalətin və beynəlxalq hüququn yanında olmaqla tariximizə yazdığımız uğur səhifələrindən, sözünün imzası qədər artan əhəmiyyətindən, dünya güclərinin dövlətimizlə hesablaşmasından və sadalamaqla bitməyən reallıqlardan geniş bəhs edərək bunların əsasında düşünülmüş siyasətin dayandığını əsaslı şəkildə diqqətə çatdırdı.

Prezident İlham Əliyev ölkəyə rəhbərlik etdiyi dövrdən bu günə kimi ilk növbədə Azərbaycanın müstəqil iqtisadiyyatını qurdu. Sabitlik olmasa, investisiya, iqtisadi inkişaf və təhlükəsizlik olmaz. Ölkəmiz qarşısında dayanan bütün hədəflərə çatır. Cənab İlham Əliyevin 2003-cü ildə ilk dəfə Prezident seçilərkən verdiyi vədlərdən biri Azərbaycanın gələcəkdə çox zəngin və qüdrətli ölkəyə çevriləcəyi ilə bağlı idi. Neft strategiyasını davam etdirərək, qısa müddət ərzində ölkəmizin hərtərəfli inkişafına nail olacağını vurğulayırdı. Prezident İlham Əliyev vəd vermişdi ki, xüsusilə qeyri-neft sektoruna böyük diqqət göstəriləcək, yeni zavodlar, fabriklər istifadəyə veriləcək. Sahibkarlığın inkişafı üçün tədbirlər planının, Azərbaycanda iqtisadi inkişaf proqramının hazırlandığını deyən İlham Əliyev əminliklə bildirirdi ki, bu çoxşaxəli inkişaf proqramı Azərbaycanı qısa müddət ərzində zəngin dövlətə çevirməyə imkan yaradacaq. Dövlət başçısı bu vədləri verərkən respublikamızın güclü potensialına istinad edirdi.

Azərbaycan yeni dünya nizamına öz töhfəsini əməlləri ilə verir. Ölkəmizin son illərdəki addımları çox ciddi təhlil edilir. Çünki yaxın keçmişə nəzər salsaq, görərik ki, dünya tarixində öz ərazi bütövlüyünü öz gücü ilə bərpa edən ikinci ölkə olmayıb. Bunu Azərbaycan bütün təzyiqlərə, təhdidlərə və təhlükələrə rəğmən bacardı. Müstəqil siyasət aparmaq iqtidarında olan ölkələrin sayı o qədər də çox deyil. Azərbaycan çoxtərəfli diplomatiyada zəngin təcrübəyə malik olduğunu atdığı addımları ilə təsdiqləyir. Buna əmin olmaq üçün ölkəmizin Qoşulmama Hərəkatına 4 illik sədrlik dövrünü yada salmaq kifayətdir. Daim ədalətin və beynəlxalq hüququn yanında olan Azərbaycana üzv dövlətlərin göstərdiyi etimadın və inamın nəticəsi idi ki, ölkəmizin quruma sədrlik dövrü bir il uzadıldı. Azərbaycan bu illər ərzində Qoşulmama Hərəkatının beynəlxalq nüfuzunun artmasına böyük töhfələr verdi. Ölkəmizin ötən il dünyanı Bakıya toplayan COP29 iqlim konfransına ev sahibliyi də çoxtərəfliliyin tərəfdarı olduğunu nümayiş etdirdi. Tədbir çərçivəsində liderlərin, həmçinin inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Sammitinin keçirilməsi, yekun qərarlar özündə bütün məqamları açıqladı. COP29-u iqlim diplomatiyasında dönüş nöqtəsi kimi dəyərləndirən cənab İlham Əliyev bildirdi ki, Bakı nailiyyəti çoxtərəfliliyin təntənəsidir. Azərbaycan inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpülərin qurulması üçün səylərini əsirgəmədi və bunun nəticəsində dünya tarixi Bakı nailiyyətinə şahid oldu.

Xalqımızın milli-mənəvi dəyərlərini ən yüksək səviyyədə qoruyaraq şərəfli tarixi keçmişimizə böyük ehtiram göstərən, Azərbaycanın bu gününü məharətlə yaradan və parlaq gələcəyimizin uğurlu təməllərini formalaşdıran, ən mürəkkəb şəraitdə belə yalnız xalqımızın dəstəyinə güvənən lider kimi onun seçkilərdə qazandığı qələbələr vətəndaşlarımıza sonsuz sevinc hissi bəxş edir. Dünyanın ən sürətli inkişaf edən ölkələrindən biri kimi xarakterizə edilən Azərbaycanda sosial-iqtisadi sahədə qazanılan nailiyyətlər beynəlxalq miqyasda da yaxından izlənməkdə, diqqətlə öyrənilməkdədir. Bu sahədə araşdırma aparan təşkilatların, ekspertlərin yekun qənaəti belədir ki, Azərbaycan iqtisadi sferada uğurlarla zəngin bir yolda irəliləyir və artıq özünəməxsus cəhətləri olan inkişaf modelinin əsasını qoyub. Qeyd edilənlərin məntiqi nəticəsidir ki, son bir neçə ildə Azərbaycan Ümumi Daxili Məhsulun artım dinamikasına görə dünya dövlətlərinin lideri statusunu daşıyır. Bunun önəmli səbəblərindən biri də Azərbaycan iqtisadiyyatının inkişafının təkcə enerji sektoru üzərində köklənməyərək, digər mühüm sferaları da əhatə etməsidir.

İqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun Ümumi Daxili Məhsul istehsalında xüsusi çəkisinin artması, sahibkarlara yüksək dövlət qayğısı, regionların proporsional inkişafı, aparılan səmərəli islahatlar və bu qəbildən olan digər amillər Azərbaycanda qazanılan uğurların miqyasının genişlənməsinə mühüm töhfələr verir. Bununla yanaşı, iqtisadiyyatda qabaqcıl texnologiyaların tətbiqi, yüksəkixtisaslı kadr hazırlığına yetirilən diqqət, enerji resurslarından digər sahələrin inkişafı üçün istifadə olunması Azərbaycanın qarşıdakı dövr ərzində də sosial-iqtisadi tərəqqidə yeni möhtəşəm nailiyyətlərə imza atacağından xəbər verir. Bu, həm də Azərbaycanın iqtisadi siyasətinin nə dərəcədə dövrün tələblərinə cavab verməsinin bariz göstəricisidir.

İqtisadiyyatının hazırkı mənzərəsi bir daha göstərir ki, ölkəmiz təkcə neft gəlirlərindən asılı deyil. Hazırda ölkə iqtisadiyyatının 70 faizə yaxın hissəsi qeyri-neft sektorunun payına düşür. Müasir sənaye müəssisələrinin yaradılması, sənaye parklarının və məhəllələrinin təşkili davam etdirilmiş, texniki avadanlıqlar, metal konstruksiyalar, beton məmulatları zavodları, tekstil fabriki və digər müəssisələr açılmış, bir sıra sənaye obyektləri tikilmişdir. Ölkəmizin əsl söz, nüfuz sahibi edən uğur formulunda, inkişaf modelində vacib amillər kimi əvvəlki ikisini - güclü dövlət və güclü iqtisadiyyatı tamamlayan və bu ikisinin məntiqi nəticəsi kimi dəyərləndirilən, dövlət siyasətinin əsas məqsədi məhz əhalinin sosial rifahının təminidir. Bu istiqamətdə atılan addımlar, eyni zamanda daxili sabitliyin, firavanlığın, əmin-amanlığın bərqərar olunmasına xidmət edir. Bu gün dünyanın müxtəlif bölgələrində müharibələr, münaqişələr, qanlı toqquşmalar baş verir. Ölkəmizdə isə sülh, sabitlik, əmin-amanlıq hökm sürür, inkişaf, quruculuq prosesləri uğurla gedir, bu yolda daha inamla irəliləməyi və yeni dövrün islahatlarını maksimum qısa zaman kəsiyində başa vurmağı hədəfləyir.

**Mustafa KAMAL,**
**"Respublika".**